# Qara daşı göyərdən söz



*Musa Yaqub, gözü yolda Təbrizin,*
*Gözlərinin qara yaşı göyərdi.*
*Göyərmədi istədiyi bircə dən,*
*Savalanın qara daşı göyərdi.*

*Bu dünyanı hörümçəkdən almışıq,*
*İlməsini kim atdı bu yanlışın,*
*Dedim barı düz toxuyaq qalmışı,*
*Önümdəcə neçə naşı göyərdi.*

*Kim işığı ürəklərə doğrayar,*
*Kim işığı ürəklərdən oğrayar,*
*Kim yalanı calaq vurdu doğruya,*
*Hər şivindən oğrubaşı göyərdi.*

*Çox gözlü var torpağına kor baxır,*
*Dan yerinə bəbəyində tor baxır.*
*Yüz də çevir, min də ələ torpağı,*
*Namərdinən mərd yanaşı göyərdi.*

*Mən Arazda şaxələnən çinardım,*
*Ömrü boyu tufan əydim, su yardım.*
*Xətainin qılıncını suvardım,*
*Məmməd Araz karandaşı göyərdi.*

***Məmməd ARAZ (1933–2004)***

Xalq qəzeti.- 2024.- 22 sentyabr (№ 207). - S.10.